# Səcdə olunan torpağın fəryadı

**Qarabağın ən gözəl guşələrindən olan qədim Kolanı obasında dünyaya göz açan, dağların dərələrin qolboyun olduğu, buz bulaqların, ormanların havası, nəfəsi dolaşan, Xaçınçayın zümzüməli sahilində,qədim türk abidələrinin torpaqdan baş qaldırdığı Əliağalı kəndində uşaqlığı, yeniyetməliyi bir nağıl kimi keçən Salman Alıoğlu (Babayev) qırx ilə yaxındır ki, jurnalist fəaliyyəti göstərir. Qələm onun ən yaxın sirdaşı,ən vəfalı yoldaşı və ən etibarlı dostu olub, ürəyinin hökmü ilə qələmə aldığı yazılarla həmişə haqqın, ədalətin yanında dayanıb.**




Həsrətin,dərdin yükü yaman ağır olur, vallah, ona daş da dözməzdi, əriyərdi, çatlayardı. Daşın dözə bilmədiyi həsrətə və itkiyə biz dözürük,yurd itkisinə özümüzü ovundururuq, dədə-baba torpaqların işğal altındakı iniltisi, faciəmiz bizə tərs bir şapalaq vursa da cəsarətimiz,qeyrətimiz,qisasımız, intiqamımız elə bil div yuxusuna gedib.

Yazıçı publisist Salman Alıoğlunun "Maarif" nəşriyyatı tərəfindən nəşr olunan "Gözü yolda qalan var" kitabı oxucuya bu hissləri aşılayır və Qarabağın işğalından,həmin qədim yurd yerindən didərgin düşən insanların taleyindən,erməni faşizminin qəddarlığından, qarabağlıların üzləşdiyi siyasi oyunlardan və 30 ilə yaxın Ermənistanın işğalı altında inildəyən torpaqların harayından bəhs edir.

Kitabda müəllifin ön söz yerinə yazdığı müraciət yurd yanğısı,torpaq itkisi, insan faciəsi haqqında bir elegiyanı xatırladır.Qəmin, qüssənin, kədərin, ağrının, qanı kəsilməyən yaranın, qəlbimizdə qabar bağlamış dərdin-Qarabağın qara bəxtindən,ağır taleyindən dil açıb danışan sözlər köz kimi adamı yandırır.

Kitab son otuz ilin hadisələrinə, Qarabağda baş qaldıran erməni faşizminin ifşasına,1991-1992-1993-cü illərdə ölkəni öz ağuşuna alan ziddiyyətlərə, hadisələri öz məcrasından çıxararaq başqa səmtə yönəldən əclaf anarxiyaya, Azərbaycanın üzləşdiyi dərin uçuruma və insan talelərinə işıq salaraq oxucuya bələdçilik edir.

Yazıçı ürək yanğısı ilə oxucuya bir daha bildirir ki, Qarabağın adı da, taleyi də tora düşüb,bu cənnət yurdu tələyə salıblar, qoynunda bəslədiyi qarabağlılar oradan didərgin düşüb,ora, o ecazkar yurda uzanan yolların,cığırların qarşısına yağı düşmən çalın çarpaz sipər şəkib.

Taleyi də, bəxti də, adi otu, çiçəyi də, şır-şır axan çayları,bulaqları da, hər dərdə dərman olan havası, suyu da, qara torpağı da əsirlikdə qalıb,ona qırx yerdən düyün vurublar, qibləsi itib,ümidi ha göyərsə də şaxta vurmuş çiçək kimi tez solur, elə bil bu yurda qarğış edənlərin, onu əlimizdən alanların meydanında hər kəsin bildiyi həqiqəti öldürüb içimizdə dəfn etmişik.

Kitabda müəllifin hekayələri də dərc olunub. Məcburi köçkünlüklə üzləşmiş insanların ağır taleyi obrazların dili ilə faciənin miqyasını bir daha diqqətə çatdırır.

"Gözü yolda qalan var" kitabı səcdə etdiyimiz Qarabağ torpağının fəryadını öz səhifələrinə həkk edib,ona görə də onu həyəcansız oxumaq mümkün deyil.

**Eyni zamanda kitabda nikbin ruh, gələcəyə dərin inam, vətəndaşlıq mövqeyi həyati faktlarla öz əksini tapıb. Kitabın ana xəttini məcburi köçkünlərin Ali Baş Komandana inamı, Qarabağın işğaldan azad ediləcəyinə qəti bir ümid təşkil edir.**

**Çingiz Tofiqoğlu**

Ədalət 2019.- 5 noyabr.- S.8.